*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 218-229* *E-ISSN 2709-2699*
*http://dx.doi.org*

# “Şuşa ili” ədəbiyyatşünas alimlərimizin təqdimatında

**Zakirə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan
E-mail: zakiraalieva7@gmail.com

**Annotasiya.** 44 günlük Vətən müharibəsi, işğal edilmiş torpaqlarımızın şanlı ordumuzun, igid əsgərlərimizin şücaəti ilə azad edilməsi, Qələbə, Zəfər günün qeyd edilməsi kimi möhtəşəm hadisələrdən sonra, 2022-ci il yanvarın 5-də isə dövlət başçısı “Azərbaycan Respublikasında 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında” Sərəncam imzaladı. Bundan əvvəl, 2021-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhərini ölkənin mədəniyyət paytaxtı elan edilmiş, “Vaqif poeziya günləri” və “Xarıbülbül” festivalı bərpa olunmuşdu. Bütün bu möhtəşəm tarixi hadisələr ədəbiyyatşünaslığımızın yeni bir “Qarabağnamə”sinin ərsəyə gəlməsinə rəvac vermiş oldu. Bu haqda Akademik İsa Həbibbəyli “Qarabağnamə”lərin ədəbiyyat mərhələsinin elmi dərki” başlıqlı məqaləsində yazır: “Qarabağnamə”lər Azərbaycan tarixinin mötəbər qaynaqlarıdır. Və “Qarabağnamə”lər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi coğrafiyası, görkəmli şəxsiyyətləri, yazıçı və şairləri haqqında bələdçilik funksiyasına da malikdir. XX əsrdə tədricən tarixi “Qarabağnamə”ləri ədəbi-bədii əsərlər əvəz etmişdir... Ədəbiyyatda Qarabağ mövzusunun geniş yer tutması ədəbiyyatşünaslıq elminin də problemi əsaslı şəkildə öyrənib ümumiləşdirməsi və istiqamətləndirməsi zərurətini gündəmə gətirmişdir. Artıq Azərbaycan ədəbiyyatşünaslıq elmində Qarabağ mövzusunun tədqiqatçıları nəsli yetişib formalaşmışdır.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında 5 yanvar 2022-ci il tarixli Sərəncamı ilə Şuşanın ədəbi-mədəni həyatının yeni bir səhifəsi yazılmağa başladı. Xalqın gen yaddaşına çevrilmiş, şeir-sənət mərkəzi, ecazkar mədəniyyətimizin rəmzi olmuş Şuşanın Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi isə bu ənənənin davam etdiriləcəyindən xəbər verir”.
**Açar sözlər:** Vətən müharibəsi, Şuşa, zəfər günü, Qarabağ, ədəbiyyatşünaslıq

**Məqalə tarixçəsi:** göndərilib – 12.12.2022; qəbul edilib – 16.12.2022

# “Year of Shusha” in the view of our literary scholars

**Zakira Aliyeva**
Doctor of philosophy in philology
Institute of Literature nameda after Nizami Ganjavi. Azerbaijan.
E-mail: zakiraalieva7@gmail.com

**Abstract.** Our occupied lands of Karabakh were liberated by the valor of our glorious army and brave soldiers during the 44-day Patriotic War. After such major events as the celebration of the Victory Day, on January 5, 2022, the head of state signed the Decree “On declaring 2022 the Year of Shusha in the Republic of Azerbaijan.” Prior to that, in 2021, by the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated May 7, 2021, the city of Shusha was declared the cultural capital of the country, the “Vagif Poetry Days” and the “Kharibulbul” festival were

restored. All these great historical events contributed to the creation of a new "Karabakhname" of our literary criticism. Academician Isa Habibbayli writes about this in his article on "Scientific comprehension of the literary stage of "Karabakhname": Copies of "Karabakhname" are reliable sources of Azerbaijani history. And copies of "Karabakhname" also have the function of a guide to historical geography, prominent personalities, writers and poets of Karabakh, which is an integral part of Azerbaijan. In the 20th century, the historical "Karabakhname" was gradually replaced by literary and artistic works. A generation of researchers of the Karabakh theme has already matured and formed in the literary science of Azerbaijan.
The announcement of Shusha, which has become the genetic memory of the people, the center of poetry and art, the symbol of our beautiful culture, by the Decree of President Ilham Aliyev, the capital of Azerbaijani culture, indicates that this tradition will be continued".
**Keywords:** Patriotic War, Shusa, Victory Day, Karabakh, literature studies

**Article history:** received – 12.12.2022; accepted − 16.12.2022

## Giriş / *Introduction*

Minilliklər ərzində cəmiyyətdə ədəbi əsərlərin yaşadılmasını təmin edən sosial institutlar formalaşmışdır. Bu sosial institutlar bədii ədəbiyyat mətnlərini, ümumiyyətlə, klassik və müasir ədəbi irsimizi ictimai-siyasi, ideoloji təlatümlərin sınağından çıxararaq günümüzə qədər çatdırmışdır. Bu gün ədəbiyyatşünaslıq elmimizin tədqiqat obyektinə çevrilən və məzmununa, funksional məqsədinə, elmi əhəmiyyətinə, konkret istiqamətin, problemin öyrənilməsi dərəcəsinə və s. görə fərqlənən həmin bədii və ədəbi-tənqidi materiallar təkcə kitab nəşrlərində deyil, filoloji araşdırmaların, elmi nəşrlərin müxtəlif aspektli çoxsaylı sistemində, davamlı işıq üzü görən toplularda, dərgilərdə, rəqəmsal resurslarda təmsil olunur. Elmi ünsiyyət mühitinə çevrilməkdə olan internetdə bədii əsərlər dərc olunur, onların təqdimatı, müzakirəsi aparılır, şərhlər, təhlillər, rəylər, ədəbi-tənqidi materiallar təqdim olunur. Bütün bu proseslər texniki imkanlar, institusional və sosial yollarla həyata keçirilir. Həm ənənəvi, həm də rəqəmsal daşıyıcılarda təqdim olunan materialların izini, sorağını, məzmununu, müəllifini, digər məlumatlarını və nəhayət mənbələrin orijinalını, özünü əldə etmək, müqayisələr aparmaq, ciddi elmi-faktiki yükü olan resursları müəyyən etmək və s. üçün müraciət edəcəyimiz ən etibarlı ünvan isə biblioqrafik mənbələrdir.

## Əsas hissə / *Main Part*

Azərbaycan Milli Elmlər Akademiyasını xalqımızın müasir beyni hesab edən xalq şairimiz Bəxtiyar Vahabzadə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunu "bu beynin yüz illərdən bəri yaratdığı mənəvi sərvəti üzə çıxarmaq üçün tarixin yaddaşını oyadan işıq mərkəzi" adlandırırdı. Çünki bu İnstitutda "söz sənəti zərgərlərinin yaratdığı incilər söz sənəti sərraflarının əli ilə nizamlanır, hər incinin öz yeri, öz dəyəri müəyyənləşdirilir" [6, s.11]. Bu dəyərli incilər isə gərgin elmi tədqiqat işlərinin ciddi nəticələri – nəşr olunan kitablar, monoqrafiyalar və s. ibarətdir.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Elmi informasiya və tərcümə" şöbəsi artıq onuncu ildir ki, "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının elmi əsərlərinin biblioqrafiyası"nı elmi mühitə təqdim edir. Bu mötəbər və etibarlı elmi axtarış vəsaiti sistemli şəkildə, vaxt itkisinə yol vermədən, "söz sənəti zərgərlərinin və sərraflarının" yaradıcılıq məhsulları ilə nizamlı şəkildə tanış olmağa, onları tanıtmağa, populyarlaşmasına imkan verir. 2022-ci ildə nəşr edilmiş əsərləri əhatə edən buraxılış sadəcə 10 sayı ilə əlamətdar deyil, eyni zamanda, ədəbiyyatşünas alimlərimizin əhəmiyyətli dərəcədə fərqli bir yaradıcılıq ilinin elmi-biblioqrafik hesabatı kimi dəyərlidir. Fərqlidir ona görə ki, "Ədəbiyyatımız, bədii düşüncə tərzimiz son otuz ildə Qarabağ havası ilə nəfəs alır, elə bir qələm əhli tapmaq olmaz ki, onun yazılarında Qarabağdan, orada gedən ölüm-dirim savaşından, nəsillərə örnək olan qəhrəman-larımızdan, şəhidlərimizdən, otuz illik həsrətin doğurduğu yurd sevgisindən, həm qələbəmizə

inamdan, həm də nə gizlədək, ümidsizlikdən doğan psixoloji sarsıntıdan yazmasın. İndi 44 günlük qalibiyyətimiz bütün bu yaralara məlhəm qoydu, Ali Baş Komandanın, Azərbaycan əsgərinin tarixi zəfəri bütün bunları unutdurdu. Bu otuz il həm də ədəbiyyatımızın keçdiyi bir yoldur – elə bir yol ki, biz o yolla addım-addım qələbəyə doğru gedirdik [18].

44 günlük Vətən müharibəsi, işğal edilmiş torpaqlarımızın şanlı ordumuzun, igid əsgərlərimizin şücaəti ilə azad edilməsi, Qələbə, Zəfər gününün qeyd edilməsi kimi möhtəşəm hadisələrdən sonra, 2022-ci il yanvarın 5-də dövlət başçısı "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" Sərəncam imzaladı. Bundan əvvəl, 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri ölkənin mədəniyyət paytaxtı elan edilmiş, "Vaqif poeziya günləri" və "Xarı bülbül" festivalı bərpa olunmuşdu. Bütün bu möhtəşəm tarixi hadisələr ədəbiyyatşünaslığımızın yeni bir "Qarabağnamə"sinin ərsəyə gəlməsinə rəvac vermiş oldu. Bu haqda Akademik İsa Həbibbəyli "Qarabağnamə"lərin ədəbiyyat mərhələsinin elmi dərki" başlıqlı məqaləsində yazır: "Qarabağnamə"lər Azərbaycan tarixinin mötəbər qaynaqlarıdır. Və "Qarabağnamə"lər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi coğrafiyası, görkəmli şəxsiyyətləri, yazıçı və şairləri haqqında bələdçilik funksiyasına da malikdir. XX əsrdə tədricən tarixi "Qarabağnamə"ləri ədəbi-bədii əsərlər əvəz etmişdir... Ədəbiyyatda Qarabağ mövzusunun geniş yer tutması ədəbiyyatşünaslıq elminin də problemi əsaslı şəkildə öyrənib ümumiləşdirməsi və istiqamətləndirməsi zərurətini gündəmə gətirmişdir. Artıq Azərbaycan ədəbiyyatşünaslıq elmində Qarabağ mövzusunun tədqiqatçıları nəsli yetişib formalaşmışdır [8, s.4].

Akademik İsa Həbibbəylinin qeyd etdiyi Qarabağ mövzusu və onun tədqiqatçılar nəslinin yetişib formalaşması proseslərinin də özünəməxsus tarixi məqamları vardır.

Görkəmli rus ədəbiyyatşünası, Akademik D.S.Lixaçov yazırdı: "Ədəbiyyatşünaslıq müxtəlif mövzulara, böyük "məsafələrə" ehtiyac duyur, çünki o, bu məsafələrlə mübarizə aparır, insanlar, xalqlar, əsrlər arasındakı sədləri aradan qaldırmağa çalışır..." [14]. Bu mənada **"**Daxilimizdə yaşayan yetmiş ilin hər gününün içimizdən saat-saat sıxıb çıxaran həkim – sanitar işini məhz o – bədii ədəbiyyat görməli" idisə [10, s.563], zamanın ideoloji məsafələrində görünməz olmuş klassik irsimizin, milli ədəbi mühitimizin yaddaş zəncirinin itirilmiş həlqələrinin bərpası və ictimailəşməsi işini də ədəbiyyatşünaslıq elmimiz öhdəsinə götürməlyə borclu idi.

Qarabağ mövzusu ətrafında Sovet rejiminin hakim olduğu illərin xronologiyası daxilində biblioqrafik axtarışlar bizi rejimin ideoloji kölgəsində görünməz olan Qarabağ mövzusuna dair bəsit pafoslu, qərəzli yazılarla, saxtalaşdırılmış mənbələrlə üz-üzə qoyurdu. Həmin dövrdə Qarabağ mövzusuna ikili baxışı təhlil edən filologiya elmləri doktoru Elçin Mehrəliyev yazırdı: "Erməni məkr və hiylələrini ifşa edən sərbəst düşüncəli şair və yazıçılar təqib olunmuş, amansızcasına cəzalandırılmışdır. Diqqət yetirsək, proletar ədəbiyyatının təşəkkül dövründən xeyli əvvəl başlayan və 40-cı illərədək sürəkli şəkildə davam edən azərbaycanlıları repressiya prosesində başlıca motivin "erməni məsələsi" ilə sıx əlaqəli olduğunu görərik. Qətlinə fərman verilən, yaxud sürgün edilən elm və ədəbiyyat xadimlərimizin əksəriyyəti Qarabağda və Azərbaycanın digər bölgələrində törədilən qırğınlara öz kəskin münasibətini bildirmiş, erməni saxtakarlığını ifşa etmiş, Azərbaycan həqiqətlərini yayaraq milli varlıq uğrunda mübarizə aparmışlar. Bu fikrin təsdiqi üçün Ə.Ağaoğlu, F.Köçərli, C.Məmmədquluzadə, H.Cavid, S.Hüseyn, Ə.Cavad, Y.V.Çəmənzəminli, B.Çobanzadə, T.Ş.Simurq, M.Müşfiq, H.Zeynallı, V.Xuluflu, Ə.Cəfər və başqa onlarla repressiya qurbanının yaradıcılıq fəaliyyətlərinə diqqət yetirmək kifayətdir" [15].

Ciddi elmi nəticələri ortaya qoymaq üçün ədəbi irsimizi tarixi-ictimai proseslər, mənəvi-əxlaqi dəyərlər müstəvisində, yeni təfəkkür işığında araşdırmaq, obyektiv elmi meyarlarla dəyərləndirmək, tədqiq və təbliğ etmək ədəbiyyatşünaslığımızın milli ədəbiyyatımız qarşısındakı ümdə vəzifəsi, borcu və əsas missiyası idi.

1989-90-cı illərdə ölkədə gərginliyin artması və kəskin şəkil almış iqtisadi, siyasi böhranın ictimai və mədəni həyatın bütün sahələrinə ciddi təsiri ilə xarakterizə edilirdi.

Ermənilərin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və Qarabağda

etnik zəmində təxribatlar, terror əməlləri, təcavüzə məruz qalan insanlar, xalq hərəkatının şəhidlərin qanında boğulması və müharibə... O illərin “Qarabağ müharibəsinin ədəbiyyatda inikası” T.Əlişanoğlunun “Çağırış poeziyası”nda, “Publisist kəsər”ində, V.Yusiflinin “Xocalı simfoniyası”nda, T.Əlişanoğlu və D.Əliyevanın “Müharibə nəsri”ndə və ümumiyyətlə, “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” ikicildliyinin (Bakı, Elm və təhsil, 2016, 800 s.) birinci cildində geniş təhlil və tədqiq edilmişdir.

Müharibə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çalışan alimlərimizin elmi və ictimai fəaliyyətində, yaradıcılığında, şəxsi həyatında belə öz izlərini qoymuş oldu. İlk növbədə ədəbiyyatşünas alimlərimiz Azərbaycana təcavüzün, Qarabağın işğalının ən əvvəl mənəvi dəyərlərimizə, qədim maddi və mənəvi abidələrimizə təcavüzdən, qəsddən başladığını faktlarla göstərməyə və “Bu gün dünəndən başlayır” deyərək, klassik irsimizin dəyərlərinə dayanaraq yoluna davam etməyə səy etdi. Çünki “Vətən didərgin olanda, millət pərən-pərən düşəndə Xarı bülbül də qaçqın, qərib, şəhid Xarı bülbül olur! Natəvan olur ağı deyir. Vaqif və Zakir olur, Üzeyir bəy olur, Bülbül olur...” [10, s.580].

Düşmənə layiq olduğu cavabı vermək üçün ilk növbədə bu milli-mənəvi yaddaşı bərpa etmək, xalqın tarixi varlığını, milli dəyərlərini onun özünə və dünyaya müstəqillik dövrünün yeni baxış müstəvisində tanıdılmasını elmi fikrin müqəddəs vəzifəsinə, missiyasına çevirmək gərək idi.

Görkəmli ədəbiyyatşünas alim, mərhum Yaşar Qarayev bu haqda yazırdı: “tarixi Qarabağı itirməmişdən əvvəl tarixi yaddaşı (!) itirmişik. Əcnəbi drakonlar və daxili manqurtlar, islam və türklük düşmənləri Şərqdə, o cümlədən Azərbaycanda yaddaşın məhvi ilə müntəzəm, ardıcıl, planlı şəkildə məşğul olmuşlar” [13, s.300].

O illərdə Qarabağ məsələsi ilə bağlı ictimai-siyasi durum və onun ədəbi-mədəni mühitə, elmi yaradıcılığa təsiri Yaşar Qarayevin yaradıcılığında özünəməxsus tərzdə öz əksini tapır. Bu haqda filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənovanın “Yaşar Qarayev yaradıcılığında Qarabağ: tarixi - mənəvi yaddaş” başlıqlı məqaləsi [9] geniş məlumat verir: “Ədəbi Qarabağ” mövzusundan bəhs edən müəllif, Qarabağın “elmi pasportunu” yaratmış, tarixi faktlara, mənbələrə istinad edərək Qarabağın “bizim vahid etnik-estetik təfəkkürü şərtləndirən təbii-coğrafi kontekstə həmişəlik, sabit üzvi tərkib hissəsi kimi daxil” olduğunu bildirmişdir.

Qarabağ ədəbi mühiti, şəxsiyyətləri, klassiklərimizin zəngin irsi bu sahədə yaddaşımızı yaşadan bütün ədəbi-mədəni, unudulmuş, qadağan olunmuş elmi mənbələr, orqanlar, yazarlar və onların əsərləri yeni baxış, yeni yanaşma müstəvisində öz tədqiqatçılarını gözləyirdi. Bu mənada itirilmiş tarixi yaddaşa ədəbiyyat üzərindən qovuşmaq və onu tədqiq və təbliğ etmək missiyası elmi tədqiqatlarda və ictimai fəaliyyətdə millilik və azərbaycançılıq təəssübkeşliyi çıxışları ilə başladı.

Bu illərdə İnstitutda aparılan tədqiqat işləri həm Azərbaycan ədəbiyyatının tarixi-nəzəri məsələlərini, həm də onun beynəlxalq əlaqələrini, ədəbi abidələrin tədqiqini, bədii irsin nəşrini və başqa ədəbiyyatşünaslıq məsələlərini, problemlərini əhatə edirdi. 1990-cı ilə dair İnstitutun illik hesabatında qeyd edildiyi kimi, xalqın milli mənlik şüurunun artması, öz kökünə qayıtması məsələsinin ön plana çəkildiyi bir dövrdə tədqiqat proseslərində, xüsusilə, folklor tarixi nəzəriyyəsi və poetikası üzrə kompleks araşdırmaların diqqət mərkəzində olması zəruri idi. 1993-cü ildə çoxcildli Azərbaycan folkloru antologiyasının əvvəlki illərdə toplanmış materiallar əsasında “Qarabağ”, “Zəngəzur” cildlərinin tamamlanması üzrə işlər aparılır. Yaşar Qarayev yazırdı: “Qarabağla hələ də bir bətndə olduğumuz mənəvi Vətən – yenə də folklordur. Və əbədi-əzəli, tarixi Vətənə də biz yenə də burdakı sətrlərdən başlayan uzantılarla yaxınlaşırıq” [12, s.18].

Yeni yaradıcı təfəkkür işığında Qarabağın folkloru ilə bağlı Fəridə Hicranın “Yuxular... Yozmalar...: Qarabağ folklorundan” (1991), Yaşar Qarayevin “Xarı bübülün nağılı” (İlyas Əfəndiyevin həyat və yaradıcılığı haqqında 1995), Kamran Məmmədovun “Nəcəf bəy Vəzirov” (1995), N.Vəlixanovun “Süleyman Sani Axundovun elmi-tərcümeyi-halı” (1996), B.Ağayevin “Ceyhun Hacıbəyli: Qarabağ dialekti və folkloru” (1998), Z.Əsgərlinin “Nəcəf bəy Vəzirov” (1998) ilk töhfələr idi.

2000-ci ilin dekabr ayının 22-də Şuşa şəhərinə həsr olunmuş elmi konfrans keçirildi. Konfransda çıxış edən Yaşar Qarayevin “Qarabağ ədəbi mühiti” mövzusunda məruzəsi

tədqiqatlara ehtiyacı olan Qarabağın ədəbi-mədəni həyatının zəngin tarixi, elmi faktoqrafik və ədəbi-informativ mənzərəsini diqqətə çatdırırdı. ("Şuşa şəhərinə həsr olunmuş elmi konfrans", Bakı: 2000, 44 s. – s.12-34). Elə həmin ildə Yaşar Qarayevin redaktəsi ilə "Azərbaycan folklor antologiyası"nın "III Göyçə folkloru cildi (768 s.) və V Qarabağ folkloru (414 s.) cildi Yaşar Qarayevin "Nərmü-nazik bayatı", yaxud "Külli-Qarabağın abı-həyatı" (s.4-21) ön sözü ilə nəşr edildi. Mirzə Həsən Qarabaği Yüzbaşovun "Seçilmiş əsərləri", Elçin Mehrəliyevin "Müharibə və ədəbiyyat" (228 s.), Mərziyyə Nəcəfovanın "Qarabağ mövzusu bədii publisistikada 90-cı illərdə" (106 s.) və s. kitablar işıq üzü gördü.

Elçin Mehrəliyev "Müharibə və ədəbiyyat: Qarabağ uğrunda mübarizə və 90-cı illərin Azərbaycan ədəbiyyatı" namizədlik (2000), "Azərbaycan nəsr və darmaturgiyasında Qarabağ mövzusu" doktorluq (2012) dissertasiyalarını müdafiə etdi. Müəllifin "Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu: ideya və sənətkarlıq məsələləri" (2008), "Qarabağ folklor mühiti: uzaq tarixdən bu günümüzə qədər" (2008) monoqrafiyaları nəşr edildi. Qarabağ folklor mühiti: uzaq tarixdən bu günümüzə qədər" adlı monoqrafiyada Qarabağ folkloru mühitinin regional özünəməxsusluğu, etnosun şifahi yaradıcılıq ənənələri geniş tədqiq edilirdi.

Mərziyyə Nəcəfovanın "Qarabağ mövzusu bədii publisistikada. 1990-cı illər" namizədlik (2001), "Müasir Azərbaycan poeziyasında Qarabağ" doktorluq (2018) dissertasiyaları, "Qarabağ mövzusunun poeziyada işlənmə istiqamətləri" də (2009) ciddi elmi axtarışların nəticələri idi.

Sonrakı illərdə – filologiya üzrə fəlsəfə doktoru Fəridə Hicranın "Atalar sözlərində Qarabağ qoxusu" (2009, 67 s.), "Qarabağda talan var" (2019, 279 s.), Tehran Əlişanoğlunun "Nəsrdə Qarabağ müharibəsinin aspektləri" (2013, 155 s.), Vüqar Əhmədin "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" (2013, 520 s.) , Dilarə Məmmədovanın "Qasım bəy Zakir və Qarabağ ədəbi-ictimai mühiti" (2014, 176 s.) və s. kimi kitablar, yüzlərlə elmi və elmi-publisistik məqalələr, konfranslarda səslənən məruzələrdə Azərbaycan milli varlığının ədəbi-bədii dəyərləri bir daha yenidən dünyaya tanıdılır, ədəbi yaradıcılıq nümunələrinin bədnam qonşularımız tərəfindən mənimsəmə faktları ifşa edilir, ədəbiyyat tariximizin ideoloji pərdələr arxasında qalan səhifələrinə işıq salınırdı.

Akademik D.M.Lixaçovun "Ədəbiyyatın insanda insanı kəşf etmək vəzifəsi ədəbiyyatşünaslığın ədəbiyyatda ədəbiyyatı kəşf etmək vəzifəsi ilə üst-üstə düşür" [14] fikri ilə yanaşsaq, Azərbaycan ədəbiyyatşünaslığının ən ümdə vəzifəsi müharibə və insanlarda insanlığa çağırış haraylı ədəbiyyatın bədii-sənədli əsərlərini həqiqət və ədalətin yaddaş materialları olaraq bir daha üzə çıxarması, yayımlaması, müharibənin gedişində yaranan ədəbi nümunələri kəşf etməsi oldu.

2020-2021-ci illər ədəbiyyatşünas alimlərimizin qələmindən çıxan əsərlər (Həmin illərin biblioqrafik göstəriciləri nəşr olunmuşdur) ədəbiyyatşünaslıq elmimizin "Qarabağ Azərbaycandır!" şüarlı Vətən çağırışı kimi səsləndi. Ədəbiyyatşünaslarımız müxtəlif dillərdə dünya ölkələrində yayımlanan nəşrlərdə yer alan məqalə, məruzə və tezislərində, görüşlərində, müsahibələrində ədəbiyyat tariximizdə yaşayan və sonrakı illərdə yaşanan həqiqətləri dünyaya bəyan etdilər.

Nərgiz Cabbarlı, Bəhram Bağırzadə. "Qarabağ Azərbaycandır" (2021, 28 s.), Bahar Bərdəli. "Qarabağın dayağı Bərdə – Bərdənin qüruru şəhidlər..." (2021, 132 s.), Mərziyyə Nəcəfova. "Poeziyamızın Qarabağ savaşı – Vətən müharibəsi" (2021, 280 s.) və s. yaradıcılıq nümunələrinə nəzər salsaq 44 günlük Vətən mücadiləsi daxil olmaqla Qarabağ savaşının hər anının böyük Vətən sevgisi, Vətən təəssübkeşliyi ilə izləndiyinin şahidi olarıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında 5 yanvar 2022-ci il tarixli Sərəncamı ilə [1] Şuşanın ədəbi-mədəni həyatının yeni bir səhifəsi yazlmağa başladı. Sərəncamda deyilirdi: Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu... Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi

ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır...". "Xarıbülbül" musiqi festivalı və Vaqif Poeziya günlərinin təşkili Şuşanın ehtiva etdiyi zəngin mədəniyyətin bütün dünyaya uca səslə bəyanı idi" [3].

Bu uca səslə bəyana ədəbiyyatşünas alim Fəridə xanım Hicran da öz səsini Qarabağ gerçəkliklərini Haaqa Ədalət Məhkəməsinə çatdırmaqla qatmış oldu. Dünyaya haray salan "Qarabağda talan var" kitabı filologiya üzrə fəlsəfə doktoru, yazıçı-publisist, şair, Qarabağ müharibəsi veteranı əslən qarabağlı olan Fəridə Hicranın özü tərəfindən Haaqa Ədalət Məhkəməsinin kitabxanasına da təqdim edildi. "Xan qızı Natəvan" poeması isə Hollandiyada ingilis dilində Fatma Aktaşın dəstəyi ilə səhnələşdirilib tamaşaya qoyuldu, əsər Albaniyanın Galaktika Poetike ATUNIS portalında yayımlandı. İngilis dilində təqdim olunan bu poema Azərbaycanın, Qarabağın ədəbi simalarının dünyada tanıdılmasına tanınmış ziyalımız Fəridə xanım Hicranın poetik bir töhfəsi idi.

Filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı "XIX əsr Qarabağ ədəbi mühitinin ən görkəmli siması, əsrin bir çox istedadlı şəxsiyyətlərini özündə cəm edən "Məclisi-üns" ədəbi məclisinin yaradıcısı", "Qarabağ xanlığının mənəvi varisi", Xurşidbanu Natəvanın Azərbaycan ədəbiyyatında, ictimai həyatında və yaddaşlarda olan obrazını xalq yazıçısı İlyas Əfəndiyevin, Əzizə Cəfərzadənin, Məmməd Rahimin, Hüseyn Arifin, Səməd Vurğunun əsərləri müstəvisində işıqlandırır: İlyas Əfəndiyevin pyesinin əvvəlində Natəvanın Tiflisdə Qafqaz canişini ilə əllərindən alınmış ata-baba torpaqlarını, mülklərini geri qaytarmaq məqsədiylə görüşü təsvir olunur. Ona, siz tək qızsınız, o qədər mülk nəyinizə lazımdır, sualına – mən tək deyiləm, mənim yaşadığım Şuşa şəhərinin içməli suyu, məktəbi, mədrəsəsi yoxdur, mən onlara kömək etməliyəm, – deyir və yaşının az olmasına baxmayaraq, böyük bir elin qayğısını çəkməyə hazır olan iddialı bir xanım kimi görünür. Əsərin sonuna qədər də Xurşidbanu həmin iddiasında qalır. O, Şuşada çox sayda yaradıcı insanı – musiqiçi, şair, rəssam və xəttatı özündə cəm edən "Məclisi-üns" ədəbi məclisini yaradır, daha sonra geniş fəaliyyəti üçün məclisi sarayına köçürür. Şuşa əhalisinin maariflənməsinə, təhsilinə xüsusi diqqət yetirir" [4]. A.Bağırlının həmçinin "Saf və möcüzəli Şuşa", "Mənim Şuşa nağılım, mənim nağıl Şuşam" esseleri də maraqlı mətnlərdəndir.

2022-ci il aprel ayının 12-də – Ədəbiyyat İnstitutunun əlliyə yaxın əməkdaşının Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfəri baş tutdu. Alimlərimiz Xurşidbanu Natəvanın evi və "Xan qızı" bulağını, Şuşa qalasını, Mərkəzi meydandakı Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün heykəllərini, Bülbülün ev-muzeyini, Cıdır düzü və Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini ziyarət etdilər.

Şuşada Azərbaycan bədii fikrinin görkəmli nümayəndəsi, şairə Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyi münasibətilə tədbir keçirildi. Xurşidbanu Natəvanın heykəli önündə görkəmli şairəyə həsr olunmuş elmi konfransda İnstitutun icraçı direktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli, Natəvan irsinin tədqiqatçısı professor İslam Qəribli, filologiya elmləri doktoru Mahirə Quliyeva, institutun elmi katibi dosent Aygün Bağırlı və filologiya üzrə fəlsəfə doktoru Fəridə Hicran çıxış etdilər.

Professor, Vaqif Yusifli "Şuşa" adlı publisistik yazısında Şuşaya qovuşduğu günün həyəcanını belə qələmə alırdı: ... böyük bir heyranlıqla Şuşanın əlçatmaz qayalarını (Azərbaycan igidlərinin o qayaları aşıb düşmənlərə qan uddurduqlarını unutmuruq, Şuşada həlak olan şəhidlərimizi də, qazilərimizi də unutmuruq), tarixi abidələrini, muzeylərini, təzə tikililərini, Cıdır düzünü, Üzeyirin, Natəvanın, Bülbülün heykəllərini, bir sözlə, tarixi və real, təbii Şuşa mənzərələrini qarış-qarış gəzdik. Şuşa mənim içimdəki, ruhumdakı Şuşa ilə qovuşdu. Mən Şuşanın axşamlarını da seyr etdim. Xan əminin oxuduğu mahnını xatırladım: "Şuşada axşamlar yanar ulduzlar"... Bir də Məmməd Arazın "Şuşada bir gecə" şeirini...

*Gecənin qoynunda yanır dağ şəhər,*

*Fəzadan asılı, çilçıraq şəhər.*
*Dağlar öz ovcunda yandırıb onu,*
*Ulduzlar qoynuna qaldırıb onu.*
*Bu dağlar vüqarı, bu dağlar gücü.*
*Bu gecə kəşf etdim bir Şuşa bürcü*
*Bir Şuşa bürcü, tamaşa bürcü.*

Vaqif Poeziya Günlərində müasir Azərbaycan şeirinin şanlı qələbəmizlə, şəhidlərimizin və qazilərimizin igidliyilə, Qarabağımızın və Şuşamızın tərənnümü ilə bağlı şeirlərini də dinlədik. Və hiss etdik ki, müasir Azərbaycan poeziyası işğal dövründəki təbii sıxıntılardan, pessimizmdən xilas olur, indi qələbədən doğan sevinci, yüksək əhval-ruhiyyəni, nikbinliyi öz sinirinə çəkir" [18].

Alimlərin Şuşa səfəri adi səfər deyildi, ədəbiyyatımızın keçmişinə qayıdış, gələcəyinə yeni baxış ehtiva edən bir yaradıcılıq ezamiyyəti idi. Səfərdən sonra olaylar.az saytına müsahibə verən filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözovanın müxbirin "Qarabağa səfər etmisiniz. Necə düşünürsünüz, qələbədən sonrakı Qarabağ haqqında ədəbiyyat Bakıda yaranacaq, yoxsa Qarabağda yaranmalıdır?" sualına elmi təfəkkürdən doğan məntiqli cavabı maraq doğurur:

"– Mənə elə gəlir ki, qələbədən sonra yaranacaq Qarabağ ilə bağlı ədəbiyyatı biz 3 yerə böləcəyik:

1. Orada doğulub-böyümüş insanların yaratdığı əsərlər. Onlar Qarabağın dünənini də görüblər, bu gününü də. Onların əsərləri başqa cür olacaq.
2. Daha öncə heç vaxt Qarabağı görmək şansı olmayıb, bu gün görənlərin yaratdığı əsərlər. Onlar da bir fərqli olacaq. Məsələn, mən görməmişdim, həyatımda ilk dəfə idi gedirdim, qəribə idi mənim üçün.
3. Qarabağın işğalını görməyənlərin – bundan sonra doğulacaq ədiblərin yaratdıqları əsərlər. Onlar azad və yenidən qurulmuş Qarabağı görəcəklər, əsərləri tam fərqli olacaq.

Mən çox istərdim ki, əli qələm tutan hər kəs bir şeylər yazsın. Bunların hamısı tarixdə qalacaq. Söhbət ondan ibarət deyil ki, kimsə çox istedadlıdır, daha böyük əsər yaradacaq və ya əksinə. Onsuz onu gələcəkdə tarix, ədəbiyyat özü seçəcək ki, kim qalacaq, kim qalmayacaq. Amma məncə hamı bacardığı qədər bir şeylər yazsın ki, biz o duyğuları itirməyək. 10 ildən sonra bu gün hiss elədiklərimizi hiss edə bilməyəcəyik".

Ağdam rayonu Quzanlı qəsəbəsində "2022-ci il – Şuşa İlinə" həsr edilən Beşinci Beynəlxalq "Həmzə Nigari" Simpoziumu, Karabağ Uluslararası Sosyal ve Beşeri Bilimlerde Modern Araştırmalar Kongresi, Şuşada "Vaqif poeziya günləri" və s. elmi tədbirlərdə ədəbiyyatşünas alimlərimizin məruzələri dinlənildi. Ədəbiyyatşünas alimlərimizin "Şuşa ili"nə ən böyük töhfəsi isə onların nəşr olunmuş əsərləri idi.

Akademik İsa Həbibbəyli azad olunmuş Şuşada Vaqif Poeziya Günlərinin keçirilməsini "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının mübariz ruhunun təntənəsi" və "ölkəmizdə poeziya günləri ilə elmi fikrin əlaqələndirilməsinin ilk modeli" kimi dəyərləndirmişdir. (s.252-254) Poeziya günlərinin – "Qarabağa müasir dövrün ədəbiyyat və mədəniyyət ab-havasının gətirməsi"ni xüsusi vurğulayan akademikin görkəmli Azərbaycan şairi və tanınmış dövlət xadimi Molla Pənah Vaqifin həyatı və yaradıcılığından bəhs edən "Molla Pənah olan Vaqif" monoqrafiyası da (Bakı: Elm təhsil, 2021, 160 s.) Şuşa ilinə sanballı elmi töhfə idi. Müəllif ilk dəfə olaraq şairi Azərbaycan ədəbiyyatında erkən realizm ədəbi cərəyanının banisi kimi tədqiqata cəlb etmiş, həyatı, müasirləri ilə münasibətlərinin, ictimai-siyasi fəaliyyətinin bütöv elmi ədəbi-mənzərəsini yaratmağa müvəffəq olmuşdur.

Təqdim edilən biblioqrafik salnamədə bu əsərlərin geniş repertuarı sistemli şəkildə təqdim edilir. Biz nümunə üçün yalnız onlardan bir neçəsinin adını çəkəcəyik.

"Sənətkarın elmi pasportu seriyası"nın 31-ci nəşri olan "Molla Pənah Vaqif. Həyatı və yaradıcılığı" (müəllif kollektivi), filologiya elmləri doktoru Mahirə Quliyevanın "Füzuli zirvəsi və Vaqif başlanğıcı" monoqrafiyaları çap olundu. Mahirə Quliyevanın "Molla Pənah Vaqif irsi xalq yaradıcılığı ilə klassik poeziyanın qovşağında" əsəri Vaqifin yaradıcılığına yeni elmi təfəkkür

işığında yanaşmanın elmi əhəmiyyətli nümunəsi idi. Kitabın ingilis dilində nəşri Azərbaycanın ərazi bütövlüyünə önəm verənlər üçün “Qarabağ Azərbaycandır!” şüarını təsdiqləyən bir faktdır. Kitabda yer almış tarixi hadisələr fonunda Qarabağın ədəbi mühitinin, regionun müxtəlif ərazilərinin, ictimai-siyasi durumunun, etnoqrafik mənzərələrinin, qadınlarımızın yüksək əxlaqi keyfiyyətlərinin və s. təsviri milli-mənəvi dəyərlərimizin dünya miqyasında tanınması istiqamətində mühüm hadisə kimi dəyərləndirilə bilər. “Qarabağ Azərbaycandır!” şüarı tarixin sınağından çıxmış bir şüardır ki, əslində bunları onu etməyə ehtiyac yoxdur. Lakin 44 günlük müharibə bir daha sübut etdi ki, biz mənfur qonşularımıza zaman-zaman müəyyən məqamları xatırlatmalıyıq.

XVIII əsrdə Şuşa şəhərində Molla Pənah Vaqif kimi bir şeir tacidarı olduğunu vurğulayan Filologiya elmləri doktoru Qurban Bayramov “Qarabağ – Şuşa ədəbi-mədəni mühiti – uzaq keçmişdən bu günümüzə qədər” başlıqlı geniş məqaləsində tarixi-xronoloji axarda Qarabağ-Şuşa ədəbi mühitinin görkəmli şəxsiyyətləri, şair və yazarları, mədəniyyət xadimləri yığcam və müfəssəl məlumatlar təqdim edir.

Vaqif irsinə bu müraciətlər heç də təsadüfi deyildi. AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru Tehran Əlişanoğlunun yazdığı kimi, Vaqifə qayıdış həm də elə Qarabağın tarixinə qayıtmaq deməkdir... müasir Azərbaycan mədəniyyəti, cəsarətlə demək olar ki, Qarabağdan başlayır, xanlıqlar dövründən nəşət tapır...” [7]. Monoqrafiyalarda görkəmli Azərbaycan şairi, ictimai və dövlət xadimi Molla Pənah Vaqifin həyat və yaradıcılığı, Azərbaycan poeziyasındakı mövqeyi yaradıcılığının müxtəlif aspektləri təhlil edilir, ədəbi irsinin nəşri və tədqiqi tarixi, ədəbiyyatda bədii obrazı təqdim edilirdi.

“Ədəbiyyatın Şuşa zirvəsini fəth etmək” – bu gün bizim yaradıcı düşüncəmizin görküdür –, deyən fəlsəfə elmləri doktoru, professor Rahid Uluselin “Vətən müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi” kitabı “Qalib Azərbaycanın qalib ədəbiyyatı” paradiqmasının konseptual əsaslandırılmasıdır. Müəllif Birinci və İkinci Qarabağ müharibələri dövründə yaradılan ədəbiyyatın – “ədəbi-bədii salnamənin birinci və ikinci qatı”nın nümunələrini araşdırır. Vətən müharibəsinin ədəbiyyatda milli özünüdərketmə prosesini necə təsirləndirdiyinin mahiyyətini təqdim edir.

Filologiya elmləri doktoru Mərziyyə Nəcəfova Azərbaycan ədəbiyyatında Qarabağ probleminin araşdırılması ilə əlaqədar ciddi elmi əsərlərin müəllifi kimi tanınır. Oxuculara təqdim edilən “Poeziyamızın Qarabağ savaşı – Vətən müharibəsi” kitabı (Bakı: Elm və təhsil, 2021, 272 s.) müəllifin bu sıradan qarabağşünaslığa dair XXI əsrin ciddi elmi töhfələrindəndir.

Filologiya elmləri doktoru Esmira Fuadın tərtib etdiyi “44 günlük Vətən Müharibəsi Güney Azərbaycan Ədəbiyyatında” adlı toplusunda 44 günlük Vətən müharibəsinin qürurverici nəticələrindən, Azərbaycan xalqının və onun yetişdirdiyi cəngavər oğulların, müzəffər ordumuzun rəşadətindən, dünya hərb sənətində yeni səhifə olan Şuşa zəfərindən danışılır. Əsgər və zabitlərimizin döyüşlərdə göstərdiyi qeyri-adi qəhrəmanlıqlar, torpaqlarımızın düşmən əsarətindən azad edilməsi, II Qarabağ Müharibəsinin yaşatdığı qürur hisslərinin Güney Azərbaycan Ədəbiyyatından da yan keçmədiyi göstərilir: “Rəsul Qədiri Xarı bülbül əfsanəsi” haqqında poema, bəhram Əsədi şeir yazdı... Maraqlıdır, Qarabağda bitən bu əsrarəngiz gülü əfsanələşdirən o möhtəşəm xanım – Ağabəyim Ağa Qarabaği həm də siyasi xəttinə sadiq bir diplomat imiş...”.

“Şuşa ilində” alimlərimizin yaradıcılıq məhsulları sırasında filologiya elmləri doktoru, professor, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü Salidə Şərifovanın “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunu əks etdirən əsərlərin janr xüsusiyyəti, problematikası, obrazları və bədii dili” adlı monoqrafiyası ciddi nəticələri ilə fərqli yer tutur. Akademik İsa Həbibbəyli S.Şərifovanın adı çəkilən monoqrafiyasında ilk dəfə tətbiq edilən bölgü və istifadə edilən metodologiyanın gələcəkdə Qarabağ mövzusuyla əlaqədar tədqiqatlarda nəzərə alınmaqla mühüm elmi nəticələrə gəlinməsinə müsbət təsir göstərəcəyinə əmin olduğunu bildirir. Monoqrafiyada XX əsrin 90-cı illərindən bu günə qədər Qarabağ mübarizəsini əks etdirən bədii ədəbiyyat Birinci Qarabağ müharibəsi və Vətən müharibəsi (2020) dövrlərinin ədəbiyyatı kimi tədqiq edilir. Müəllif Birinci Qarabağ müharibəsinə və Vətən müharibəsinə həsr olunmuş bədii və publisistik əsərlərdə gələcəyə nikbin ümidin, qələbə əzminin və təntənəsinin əksini tapmasını xüsusi qeyd edir. Qarabağ mövzusunu əks etdirən publisistik əsərlər, nəzm, nəsr və dram

nümunələri, ssenarilər və filmlər geniş tədqiq olunur, sistemli yanaşma metodu təhlilə cəlb edilir.

Filologiya elmləri doktoru Elnarə Akimova "Anarın əsərlərində Şuşa – etibarlı yaddaş mətnləri kimi" başlıqlı məqaləsində qeyd edir ki, Anarın istər "Uzun ömrün akkordları", istərsə də "Qarabağ şikəstəsi" yazısı Şuşa landşaftının tarixi, etnoqrafik lövhələrinin ehtivası baxımından etibarlı yaddaş mətnləridir. Mən etibarlı yaddaş deyərkən, qeyri-ixtiyarı "Otel otağı" əsərini xatırlayıram. Şuşa sevgisini içində gəzdirib, dolaşdığı hər yerdə onunla addımlayan Kərim müəllimi. Bu əsər həm də Şuşanın taleyini əks etdirdiyi, ona bənzədiyi üçün fərqli çalar kəsb edir. Anarın bir əsərində uşaqlığında Şuşanı qarış-qarış gəzən obrazları növbəti əsərlərində Şuşadan ayrı düşərək onun nisgili ilə qol-boyun dolaşırlar. Şuşa bu obrazların ancaq xatirələrində yer alır. Növbəti yaddaş mətni yaradır Anar" [3].

Filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözova "Cığır"dan Zəfər yoluna Yunus Oğuzun ədəbiyyatımızın yeni dövrünün ilk romanı olan "Cığır" tarixi romanı haqqında yazır: "44 günlük Vətən müharibəsinin simvolu olan Şuşa şəhərinin tarixi fonunda xalqımızın öz torpaqları, öz milli dəyərləri uğrunda əsrlərdən bəri davam edən çətin, lakin qələbəyə köklənmiş mübarizəsini işıqlandıran romanın təhkiyəsi olduqca canlı və axıcı olduğundan yaxın tarixdən oxucuya tanış olan real faktlar, rəsmi, xronikal-tarixi arayışlar, hərbi xarakterli sadalamalar bədii mətnin siqlətinə xələl gətirmir. Faktiki-tarixi materialı bədii mətnlə üzvi şəkildə məharətlə birləşdirərək 44 günlük müharibənin canlı mənzərəsini yaradan Yunus Oğuz bu əsəri ilə oxucuya həmin zaman kəsiyinin aurasını, qələbə və zəfər sevincini, Şuşa qürurunu yenidən yaşadır" [9].

Filologiya elmləri doktoru Cavanşir Yusiflinin "Şuşa, laçın, Kəlbəcər...yaxud Abbas Tufarqanlının dağları" başlıqlı yazısında da Şuşaya aid bir tarixi iz var:

*Mən dərə görmüşəm: moruq qoxulu,*
*Mən dərə görmüşəm: nərgiz yuxulu...*
*Bu dərə nə qədər müdhiş, qorxulu*
*- Sümüklü dərə ...*
*Bura şəhidlərin gorsuz gorgahı,*
*Bura qatillərin məhşər Günahı!*
*Uçqun dodağında saxlar min ahı... [17]*

2022-ci ilin yaddaqalan hadisələrindən biri də dekabr ayında "Akademiyanın Şuşanaməsi: ədəbi-tarixi ənənə və gələcəyə baxış" mövzusunda keçirilən və müəyyən mənada "Şuşa ili"nə yekun xarakterli beynəlxalq elmi konfransda Şuşa mövzusunun elmi-filoloji fikirdəki faktiki mənzərəsini ortaya qoymuş oldu. Konfransın materialları "Akademiyanın Şuşanaməsi: ədəbi-tarixi ənənə və gələcəyə baxış" adı ilə "Elm" nəşriyyatında çap olunmuşdur.

Akademik İsa Həbibbəylinin konfransdakı "Akademiyanın Şuşanaməsi: ədəbi-tarixi ənənə və gələcəyə baxış" adlı giriş məruzəsində qeyd etdiyi kimi, bu konfrans "Azərbaycan elminin "Qarabağnamə"lərinə yekun vurmaqla bərabər, yeni tarixi epoxanın Şuşanaməsində reallıqlarını diqqətə çatdırdı. Belə ki, bu konfransda təqdim edilən Nizami Gəncəvi adına Ədəbiyyat institutunun alimlərinin məruzələri elmi-filoloji fikirlərin sözün əsil mənasında "Şuşanamə"si idi.

AMEA-nın müxbir-üzvü Tehran Əlişanoğlunun "Qalibiyyət zamanı: çağdaş ədəbiyyatda diskursun dəyişməsi" başlıqlı məruzəsində 44 Günlük Vətən müharibəsi və Şuşa ilinin ədəbi mühitə gətirdiyi mövzuların ümumi mənzərəsi "ədəbi tənqidimizin sadiq və sayıq" diqqəti fonunda təhlil edilirdi: "Şəhidlik, Vətən, üçrəngli Azərbaycan bayrağı, Ali Baş Komandan, Azərbaycan Ordusu, Azərbaycan əsgəri, Türkün ucalığı, Türk birliyi, Turan, Qarabağ, Şuşa, Zəfər yolu... – adların, məqamların simvollaşması, təkrara-təkrar əsərlərdə vəsf, tərənnüm, təcəssüm tapması, obrazlaşması 1918-1920-ci illərin Cümhuriyyət dönəmindən sonra bəlkə də ən çox bu ilin ədəbiyyatında olmuşdur. Simvolik, yaxud simvollar ədəbiyyatı da demək olar bu ədəbiyyata" [2].

Filologiya elmləri doktorları Elçin Mehrəliyevin "Qarabağ mövzusunda yazılmış əsərlərdə yurd-yurddaş birliyinin bədii təcəssümü", Elnarə Akimovanın "Şuşa ili"nin estetikası: məsuliyyətimiz, vəzifələrimiz", Yaşar Qasımbəylinin "Azərbaycan poeziyasının Şuşa güvənci və sevinci",

Abid Tahirlinin “Qarabağın simvolu Şuşa”, Mərziyyə Nəcəfovanın “Poeziyamızda azad Şuşa obrazı”, filologiya üzrə fəlsəfə doktorları Aygün Bağırlının “ “Xurşudbanu Natəvanın bədii obrazı”, Gülbəniz Babayevanın “Molla Pənah Vaqifin bədii irsi müasir elmi-nəzəri fikirdə”, Lalə Həsənovanın “Narahat ruhumuzun oylağı Şuşa və ya müasir tariximizin təcəssüm olunduğu əsər (Əyyub Qiyasın “Sonuncu büt”), Elınarə Qaragözovanın “Tarixi romanlarımızda Şuşa obrazı” məruzələri klassik və müasir baxışlar, mənbələr əsasında elmi-filoloji fikirdə Şuşa mövzusunu ən müxtəlif aspektlərdə işıqlanırdı.

Bədii publisistikada Şuşa mövzusuna həsr olunmuş: Filologiya elmləri doktorları Tehran Əlişanoğlunun “Şuşada dirçəliş havası”, İmamverdi Həmidovun “Şuşada dil açan bülbüllər – “Nənələr”, Lütviyyə İsgəndərzadənin “Əziz Şuşa, sən azadsan”, Fərid Vəliyeva (“Hicran”, “Xocalı soyqırımı Şuşa bayatılarında” və s. məruzələr də faktiki informativ yükü ilə seçilirdi.

“Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının elmi əsərlərinin biblioqrafiyası”nın son 2022-ci il sayında da **“**Türk dünyasının mədəniyyət paytaxtı” elan edilən Şuşa ədəbi mühitinə həsr olunmuş materiallar üstünlük təşkil edir.

“Şuşa ili”nə həsr olunmuş bu materialların bir çoxunun tam mətni ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun www.literature.az saytında Rəqəmsal resurslar bölməsində tanış olmaq mümkündür.

## Nəticə / *Conclusion*

Yuxarıda qeyd edilən nümunələr də daxil olmaqla “Şuşa ili” ilə bağlı dediklərimiz professor Salidə Şərifovanın fikirləri ilə yekunlaşdırsaq daha doğru seçim etmiş olarıq: “44 günlük Vətən müharibəsindəki tarixi zəfərimizdən sonra Şuşanın azad, məğrur obrazı ədəbiyyat və mədəniyyətin müxtəlif ədəbi növ və janrlarında yaradılacağına əminik. Biz Şuşanın əzəmətini, sındırıla bilməyən qürurunun, qalibiyyətin rəmzi kimi bədii ədəbiyyatda tərənnüm və təsvir ediləcəyinin şahidi olacağıq. Xurşidbanu Natəvan, Qasım bəy Zakir, Molla Pənah Vaqif, Üzeyir bəy Hacıbəyli, Mir Möhsün Nəvvab, Fatma xanım Kəminə, Əhməd bəy Ağaoğlu, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Xan Şuşinski, Bülbül kimi böyük şəxsiyyətlərin öz milli təfəkkürləri ilə böyük ədəbi irs qoyması Azərbaycanın qazandığı Qələbənin rəmzi olan Şuşa ədəbi mühiti ilə bağlıdır. Şuşanın təsviri milli ədəbiyyatımızda zamanlara səpələnmiş şəklində deyil, xalqın sevgi və ehtiramını kainatın sonsuzluğunda bütövləşmiş bir şəkildə əks etdirir.

Xalqın gen yaddaşına çevrilmiş, şeir-sənət mərkəzi, ecazkar mədəniyyətimizin rəmzi olmuş Şuşanın Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi bu ənənənin davam etdiriləcəyindən xəbər verir” [16].

## Ədəbiyyat / *References*


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında 5 yanvar 2022-ci il tarixli Sərəncam...05.01.2022... https://president.az/az/articles/view/55197
2. Akademiyanın “Şuşanaməsi: Beynəlxalq elmi konfransın materialları (15 dekabr, 2022-ci il). – Bakı: Elm, 2022.
3. Akimova Elnarə. Anarın əsərlərində Şuşa – etibarlı yaddaş mətnləri kimi // “Ədəbiyyat qəzeti”, 2022, 13 sentyabr; Şuşa İli”nin estetikası – məsuliyyətimiz, vəzifələrimiz // “Ədəbiyyat qəzeti”, 2022, 02 fevral
4. Bağırlı, A. Xurşidbanu Natəvanın ədəbi-bədii yaddaşdakı portreti // 525-ci qəzet, 2020,05 sentyabr.
5. Bayramov, Q. Qarabağ-Şuşa ədəbi-mədəni mühiti – uzaq keçmişdən bu günümüzə qədər //Azərbaycan dili və ədəbiyyat tədrisi: elmi-metodik jurnal. 2021, № 2 (268.
6. Əhmədov, T. Nizami adına Ədəbiyyat İnstitutu (1935-2005). – Bakı: Nurlar, 2005.
7. Əlişanoğlu, T. “Ədəbi müstəvidə Qarabağın dünəni və bugünü” – Şuşada ilk elmi simpozium // “Ədəbiyyat qəzeti”, 2021, 04 sentyabr

8. Həbibbəyli, İ. “Qarabağnamə”lərin ədəbiyyat mərhələsinin elmi dərki: ön söz //Nəcəfova M. Poeziyamızın Qarabağ savaşı – Vətən müharibəsi. – Bakı: Elm və təhsil, 2021.
9. Həsənova, L. Yaşar Qarayev yaradıcılığında Qarabağ: tarixi-mənəvi yaddaş – https://literature.az/?page=339&newsId=118302&lang=aze
10. Qaragözova, E. “Cığır”dan Zəfər yoluna... 21.04.2022... https://news.-milli.az/society/1036703.html
11. Qarayev, Y. Xarı bülbülün nağılı // Əsərləri. II cild. – Bakı, 2015.
12. Qarayev, Y. Müharibə və yaddaş ədəbiyyatı //Qarayev Y. Seçilmiş əsərləri, 5 cilddə, IV cild. – Bakı: Elm, 2016.
13. Qarayev, Y. Tarix yaxından və uzaqdan. – Bakı: Sabah, 1996.
14. Lixaçov D.S. Д.С.Лихачев. Об общественной ответственности литературоведения… Лихачев Д.С. Избранные работы в трех томах. Л., 1987. Т. 3. С.449-453; https://studref.com/370104/literatura/lihachev_obschestvennoy_otvetstvennosti_literaturovedeniya
15. Mehrəliyev, E. Sovet dövrü ədəbiyyatında Qarabağ mövzusuna ikili baxış // “Ədəbiyyat məcmuəsi”, 2008, №22.
16. Şərifova, S.Azərbaycan nəzm və nəsrində Şuşaşnın təsviri // “525-ci qəzet”, 2022, 17 may.
17. Yusifli, C. Sümüklü dərə // “Ədəbiyyat qəzeti”, 2020, 03 dekabr
18. Yusifli, V. Bədii düşüncədə Qarabağ // “Ədəbiyyat qəzeti”, 2021, 20 sentyabr; Şuşa // “Ədəbiyyat qəzeti”, 2021, 07 sentyabr.

## “Год Шуши” в представлении наших ученых-литературовед

**Закира Алиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: zakiraalieva7@gmail.com

**Резюме.** Наши оккупированные земли Карабаха были освобождены доблестью нашей славной армии и храбрых воинов в ходе 44-дневной Отечественной войны. После таких крупных мероприятий, как празднование Победы и Дня Победы, 5 января 2022 года глава государства подписал Указ “Об объявлении 2022 года Годом Шуши в Азербайджанской Республике”. До этого в 2021 году Указом Президента Азербайджанской Республики Ильхама Алиева от 7 мая 2021 года город Шуша был объявлен культурной столицей страны, “Дни поэзии Вагифа” и “Харибюльбюль”. Фестиваль был восстановлен. Все эти великие исторические события способствовали созданию нового “карабахского имени” нашего литературоведения. Об этом пишет академик Иса Габиббейли в своей статье “Научное осмысление литературного этапа “Карабахнаме”: Копии “Карабахнаме” являются надежными источниками азербайджанской истории. А копии “Карабахнаме” также выполняют функцию справочника по исторической географии, выдающимся личностям, писателям и поэтам Карабаха, являющегося неотъемлемой частью Азербайджана. В 20 веке историческое “Карабахнаме” постепенно вытеснялось литературными и художественными произведениями. В литературоведении Азербайджана уже созрело и сформировалось поколение исследователей карабахской темы. Указом Президента Азербайджанской Республики Ильхама Алиева от 5 января 2022 года об объявлении 2022 года “Годом Шуши” начала писаться новая страница в литературной и культурной жизни Шуши. Образ Шуши в нашей национальной литературе не разбросан во времени, а отражает народную любовь и уважение, интегрированные в бесконечность мироздания. Объявление Шуши,

ставшей генетической памятью народа, центром поэзии и искусства, символом нашей прекрасной культуры, Указом Президента Ильхама Алиева столицей азербайджанской культуры, свидетельствует о том, что эта традиция будет продолжена".

**Ключевые слова:** Отечественная война, Шуса, День Победы, Карабах, литературоведение